DOI: 10.36719/AEM/2007-2020/53/193-195

**Şəbnəm Fikrət qızı Mahmudova**
Bakı, Azərbaycan
s.mahmudova350@gmail.com

# MƏKTƏBİN KOLLEGİAL İDARƏEDİLMƏSİ

***Açar sözlər:*** *idarəetmə, pedaqoji nəzarət, kollegiallıq, pedaqoji şura, təşkilatçılıq, hesabat, İKT*
***Key words***: *managment, pedagogical board, control, collegiality, monitoring, pedagogical organization, reporting, ICT*
***Ключевые слова***: *управление, педагогический совет, надзор, коллегиальность, мониторинг, педагогическая организация, отчетность, ИКТ*

## Giriş

Məktəbdə pedoqoji prosesin düzgün təşkilində, mənəvi psixoioji mühütin yaradılmasında,müəllimlərin pedoqoji fəaliyyətinin təşkilində, onların yaradıcılıq qabiliyyətlərinin səmərəli yüksəldilməsində, qabaqcıl pedoqoji təcrübənin yayılmasında kollegial orqanların rolu böyükdür. Kollegial idarəetmə orqanları olan pedoqoji şura, direktoryanı müşavirə, fənn metodbirləşmələri, sinif rəhbərlərinin metodbirləşmələri, həmkarlar komitəsi, valideyn komitəsi, metodik şura və s. orqanlar məktəbdaxili idarəetmədə əsas əhəmiyyətli fəaliyyətə malikdir.

Məktəbdə kollegial orqanlarin fəaliyyətinin səmərəli olması üçün direktor məktəbin təcrübəli müəllimləri ilə məsləhətləşərək onların fikirlərini, rəylərini əsas götürərək, pedoqoji prosesin keyfiyyətinin yüksəldilməsinə çalışır.

Təhsil müəssisələrində pedoqoji prosesin keyfiyyətinin yüksəldilməsi üçün bu orqanlarin fəaliyyəti vəhdət təşkil edir. Məktəb rəhbərləri kollegial orqanların fəaliyyətinə, onların verdiyi məlumatlara əsaslanaraq müzakirə olunan hər hansı məsələ ilə əlaqədar qəbul edilən qərarları, söylənilən fikirləri,rəyləri öz adından deyil, kollektivin adından söyləməlidir. Bu kollektivin rəhbərliklə yaxınlaşmasına, məktəbi idarəetmədə bir məqsəd uğrunda yekdilliklə fəaliyyət göstərməsinə səbəb olur. Təhsildə müvəffəqiyyət qazanılması üçün rəhbər işçilər kollegial orqanların içərisində savadlı müəllimlərin olmasına çalışmalıdır. Pedoqoji şura iclaslarında müzakirə olunacaq mövzular planların maddələrinə uyğun olmalı, qəbul edilən qərarlar Təhsil Nazirliyinin təhsil sahəsində qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi üzrə iş aparılmalıdır.

Ölkəmizin təhsil müəssisələrinin idarə olunması pedaqoji idarəetmə və özünüidarə prinsipləri əsasında idarə olunur. “Təhsil Qanunun”da (maddə 30. bənd 2) deyilir: "Dövlət təhsil müəssisəsinə rəhbərliyi müvafiq icrahakimiyyəti orqanı tərəfindən təyin edilmiş dövlət təhsil müəssisəsinin rəhbəri (rəhbərliyi) həyata keçirir. Dövlət təhsil müəssisəsinin ali idarəetmə orqanı elmi və pedaqoji şuralardır. Elmivə pedaqoji şuraların yaradılması və fəaliyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş əsasnaməyə və pedaqoji idarəetmənin mahiyyəti,onun prinsipləri qanunauyğunluqların konkret təzahürünü göstərir. Bunlar məktəbdaxili idarəetmənin əsas qanunauyğunluqları sırasına daxildir. Təhsil müəssisəsinin nizamnaməsinə əsasən müəyyən edilir”.

Bugün məktəbin idarəedilməsində kollegial idarəetmə orqanları əsas rol oynayır. Kollegial orqanlar idarəetmə strukturun komponetləridir. Kollegiallıq məktəbin idarə edilməsində müəyyən məsələ üzrə qərar çıxarılmasına geniş imkan yaradır. Məktəb rəhbərləri öz fəaliyyətlərində kollegiallıq və təkbaşçılığın vəhdəti prinsipini rəhbər tutur. Onlar hansı məsələnin kollegial,hansı məsələnin təkbaşına həll edə biləcəyini düzgün müəyyənləşdirir,vaxtında tədbir görməyə çalışırlar.İstər kollegiallıq,istərsə də təkbaşçılığa həddindən artıq meyl göstərməsi ümumi işə ziyan vura bilər. Məktəbi idarəetmədə kollegiallığın rəhbərliklə əlaqələndirilməsi məktəbin ümumi işinə, təhsilin keyfiyyətinə müsbət təsirini göstərir. Bu orqanlar məktəbdə təlim-tərbiyə prosesinin yüksəldilməsi üçün birgə çalışırlar. Onların fəaliyyəti məktəbi idarəetmədə nəzarətin güclənməsinə səbəb olur.

Ümumtəhsil məktəblərinin ali idarəetmə orqanı pedaqoji şura olsada kollegial idarəetməni demokratikliyi, şəffaflığı təmin etmək məqsədi ilə özünüidarə orqanları kimi ümumi yığıncaq, direktoryanı müşavirə, elmi-metodiki şura, məktəb icması, şagird təşkilatları, məzun şəbəkələri, özünüaudit qurumları, fənn metodbirləşmələri, sinif rəhbərlərinin metodbirləşməsi, həmkarlar komitəsi, valideyn komitələri, qəyyumlar şuraları, himayəçilər şurası məktəbin fəaliyyətini və pedaqoji kollektivin üzvlərini əhatə edən kollegial idarəetmə orqanları və s.yaradılır. Sayından, mahiyyətindən asılı olmayaraq məktəbdaxili kollegial orqanların hamısı bir məqsədə-məktəbin idarə edilməsinə xidmət edir. Kollegial idarəetmə orqanlarının

fəaliyyətinin əlaqələndirilməsi məktəb direktorunun təşkilatçılıq fəaliyyətinin tərkib hissəsini təşkil edir. Bu qurumların yaradılması qaydaları və səlahiyyətləri təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.

Kollegial idarəetmə orqanlarının fəaliyyətinin şəffaf olması üçün direktor pedaqoji kollektivin təcrübəli və peşəkar müəllimləri ilə məsləhətləşməli, onların fikirlərini, rəylərini əsas götürməlidir. Direktor işi elə təşkil etməlidir ki, kollegial idarəetmə orqanlarının hər bir üzvü təkcə öz vəzifə borcunu yerinə yetirməklə kifayətlənməsin,eyni zamanda təhsil islahatlarının həyata keçirilməsində fəal iştiraka səy göstərsin. Pedaqoji şura məktəbin fəaliyyətinin təşkilində çox mühüm rol oynayır və məktəbin təlim-tərbiyə və təsərrüfat işlərinə rəhbərlik edən ali orqandır. Tanınmış pedaqoqlar kollegial orqanların fəaliyyətinə üstünlük verərək kollegial idarəetməni məşvərətçi kimi yox, yaradıcı tənzimləyici və qətiyyətli həyata keçirməyi vacib hesab edirdilər. Pedaqoji şuranın yaradılmasında əsas məqsəd pedaqoji kollektivin üzvlərinin müəssisənin idarə olunması və qərar qəbulu prosesində iştirak etmələridir. Pedaqoji şuranın tərkibinə pedaqoji işçilər, şagird ictimai təşkilatlarının nümayəndələri, kitabxanaçı, tibb işçiləri, tərbiyə işi aparan təşkilatçı müəllimlər daxildirlər.

Məktəb direktoru təlim-tərbiyə işlərinə pedaqoji şura vasitəsilə rəhbərlik edir və pedaqoji şuranın sədridir. Pedaqoji kollektivin təlim və təhsil-tərbiyə prosesinin təşkili və keyfiyyətinin yüksəldilməsi, onu təkmilləşdirmək yollarını müəyyənləşdirmək,qabaqcıl pedaqoji təcrübəni praktikaya tətbiq etmək pedaqoji şuranın əsas vəzifələrindəndir. İldə dörd dəfədən az olmayaraq şuranın iclasları keçirilir və iclasların sayına məhdudiyyət qoyulmur. Pedoqoji şura iclası keçirilən vaxt məktəbin rəhbəri müzakirə olunan mövzunun müzakirəsindən sonra qərar qəbulu prosesində şura üzvlərinin fikrlərini dinləyib, onların fikirlərinə hörmətlə yanaşıb qərar qəbul etməlidir. Kollegiallıq məktəb rəhbərinin işini asanlaşdırır. Məktəbdaxili idarəetmədə pedoqoji şura kollektivi üç nəfərdən az olmayan məktəblərdə təşkil edilir. Ümum təhsil məktəblərinin pedoqoji şura haqqında əsasnaməsində bu şuranın məktəb haqqında hökumət qərarlarının yerinə yetiririlməsində, təhsilin yüksək elmi səviyyəsinin təmin edilməsində şüurlu,hərtərəfli inkişafa, həm fiziki, həm də əqli əmək bacarığına malik məktəbli gənclərin tərbiyə olunmasında,hazırlanmasında məktəbin, ailənin və əmək kollektivlərinin səylərini birləşdirən “daima fəaliyyətdə olan” orqan kimi təşkil edildiyi göstərilir. Məktəbdə həyata keçirilən bütün işlərin nəticəsi pedaqoji şurada müzakirə olunur və müəllimlərə çatdırılır. Pedoqoji şura təkcə ümumtəhsil məktəblərini əhatə etmir, texniki-peşə məktəblərində də fəaliyyət göstərir. Pedoqoji şura həmişə idarəetmə orqanı olmuş, kollektivin fikirlərini ifadə etməyə xidmət edir. Pedoqoji şura öz əsasnaməsinə görə məktəb haqqında direktorun qərarlarının yerinə yetirilməsində, tədrisin keyfiyyətinin yüksəldilməsində, həm fiziki, həmdə əqli cəhətdən inkişaf etmiş, yüksək əmək bacarığına malik məktəbli gənclərin tərbiyə olunmasında məktəbin, ailənin, ictimai təşkilatların səylərini birləşdirməyə xidmət edir.

Təcrübəli məktəb rəhbərləri pedaqoji şuranın fəaliyyətində müəyyən bir sistem yarada bilmişlər. Belə sistemin mövcud olduğu məktəblərdə pedoqoji şura üzərinə düşən vəzifəni müəyyən dərəcə yerinə yetirə bilir.

Direktor bu və ya digər məsələnin həllində direktoryanı müşavirələrin imkanlarından geniş istifadə edə bilər. Məsələn, məktəbdaxili nəzarətin qrafik planına əsasən aparılan yoxlamaların nəticələrini, sinif rəhbərlərinin valideynlərlə apardığı işləri, fənn metodbirləşmələrində müzakirə olunanməsələlərin nəticələri və s. direktoryanı müşavirənin mövzusu ola bilər. Direktorun metodbirləşmələrin işinin düzgün təşkilinə, təlimin keyfiyyətinə, müəllimin hazırlığına kömək edən tədbirlərin planlaşdırılmasında yaxından iştirak etməsi məktəbdə təlim-tərbiyə prosesinin yüksəldilməsinə, müəllimlərin müasir təlim üsullarına və metodlarına yiyələnməsinə kömək edə bilər.

Kollegial idarəetmə orqanı kimi məktəb valideyn komitələrinin müzakirə etdiyi məsələlərin hazırlanmasında pedaqoji heyətin iştirakı vacibdir. Burada da məktəb direktorunun valideyn komitəsinin işinə pedaqoji təsir göstərməsinə ehtiyac var.

Məktəbdə təlim-tərbiyə işinin səmərəliliyi təşkilatçılıq funksiyasının yerinə yetirilməsi səviyyəsindən asılıdır. Məktəb direktoru pedaqoji - təşkilatçılıq fəaliyyətini idarəetməyə verilən yeni tələblər əsasında qurmaq üçün idarəetmənin demokratik üsullarından geniş istifadə etməlidir. Məktəb direktoru şagird və müəllim kollektivinin fəaliyyətini təşkil edərkən elə bir şərait yaratmağa çalışmalıdır ki, müəllimin, hər bir məktəb işçisinin qabiliyyət və bacarığı, yaradıcılıq potensialı, peşəkarlığı formalaşsın və inkişaf etsin.

Məktəb rəhbərinin idarəetmə fəaliyyətinin səmərəliliyi onun kollektivdə tutduğu mövqe və qazandığı nüfuzla sıx əlaqədardır. O, çalışmalıdırki, öz vəzifələri zəminində qazandığı nüfuzu, kollektivin hər bir üzvü qarşısında qazanabiləcəyi şəxsin nüfuzla uzlaşdırabilsin.

Bir sözlə, idarəetmənin mahiyyəti onun düzgün və səmərəli təşkilindədir. Məktəbdə idarəetmə qərarları kollektiv zəkanın məhsulu olduqda və onların icrasına nəzarət düzgün təşkil edildikdə uğur qazanılır. Görülən işlər təhlil olunur və qiymətləndirilir. Pedaqoji idarəetmənin obyektiv imkanı subyektiv amildən asılıdır, yəni pedaqoji kollektivin rolundan düzgün istifadə edildikdə əməli gerçəkliyə çevriləbilir.

Təhsil sisteminin əsas istiqamət ihər tərəfli biliyə, bacarığa, praktik hazırlığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə, mütərəqqi dünyagörüşə malik dəyərlərə sahib olan şəxsiyyət formalaşdırmağa yönəlmişdir.

Hal-hazırda məktəblərdə yeniləşən məzmun, metod və qiymətləndirmə prosesləri, idarəetmə funksiyalarının ciddi surətdə dəyişdirilməsini tələb edir. Müasir məktəbi təkbaşına idarəetmək metodu inzibati amirliyə yönəlməyə aparıb çıxarır. Buna görədə pedaqoji idarəetmədə məzmun etibarılə kollegiallığa üstünlük verilir. Kollegiallıq ümumi əhəmiyyətli işlərin bir qrup şəxslər tərəfindən birlikdə ümumi kirəsi və həlli mənası daşıyır. Bu pedaqoji idarəetmədə kollegial orqanların həyata keçirdiyi rəhbərlik metodudur. Pedaqoji idarəetmədə kollegiallıq tapşırılan işi ümumi və şəxsi məsuliyyətinin uzlaşdırılması fonunda icrası, kollektiv qərar qəbuletmə ilə həyata keçirilir. Onun məqsədi atılan addımın, fəaliyyətinin cavabdehlik məsuliyyətini təmin etməkdən ibarətdir. Kollegiallıq məsələyə dərin və hərtərəfli düşünərək yanaşmağı təmin edir. Ümumtəhsil məktəblərinin idarəolunmasında pedaqoji şəraiti elmi cəhətdən qiymətləndirmək, təlim-tərbiyənin nəticələrini əvvəlcədən duymaq, işdə əsas məsələləri kollegial müzakirə edib qərar qəbul etmək, bütövlükdə düzgün yanaşma ilə işləri vaxtında icra etmək əsas məsələ kimi qarşıda durur. Məktəbi idarəedənlər və idarəolunanlar qaşılıqlı sistemdə bütövləşir. Məktəbin rəhbərlərini və pedaqoji kollektivi birləşdirən idarəedici yarımsistem aparıcı rol oynayır. Pedaqoji idarəetmə mahiyyət etibarı ilə müəyyən fikri ifadə edir. Məktəb təcrübəsində idarəetmə pedaqoji fəaliyyətin dövrəsi olan dərs ili ərzində həyata keçirilir.

Ümumtəhsil məktəblərinin idarəolunmasında real şəraitin nəzərə alınması mürəkkəb pedaqoji məsələləri yaradıcılıqla həlledilir. Məktəblilərin inkişafı, təhsilin kefiyyətinin dinamikliyinin təmin olunması ağır və çox məsul işdir. Ona görədə idarəetmə prosesində özünə və iş yoldaşlarına qarşı tələbkarlığı müasir metod olan özünü auditlə həyata keçirmək əlverişlidir. Bu zaman vətəndaş məmnunluğu, demokratiklik, humanistlik önə çəkilir. Məktəbi idarəedənin məharəti öz ifadəsini adamlarla ünsiyyət yaratmaq, kollegiallığa üstünlük vermək bacarığında tapır. Ümumtəhsil məktəblərinin idarəolunmasıda kollegiallıq baxımından yanaşarkən hesabatlılıq, məsuliyyətin bölüşdürülməsi və inkişafın dinamikasının monitorinqi əsas götürülür. Hesabatlılıq nəticə etibarilə ümumi təhsilin həyata keçirildiyi məktəblərdə kollektivin hər bir üzvünün tapşırılmış iş sahəsində cavabdehliyini, məsuliyyətini nəzarətdə saxlamış olur.

Məktəbin kollegiali darəedilməsində müasir İKT-nin tətbiqi daha yüksək nəticələr əldə etməyə zəmin yaradır. Beləki, məktəbdaxili komputer şəbəkəsinin qurulması, tədris otaqlarında görmə kameralarının quraşdırılması, elektron jurnal, operativ informasiya mübadiləsi və s. imkanlardan səmərəli və məqsədli istifadə nəticəsində kollegial idarəetmənin operativliyi və nəticələri artmış olar.

## Ədəbiyyat

1 .Ə.Kəlbəliyev-Təhsili idarəetmənin əsasları (Məktəbşünaslıq) Bakı-Nurlan-2006
2. N.Kazımov. Məktəb pedaqoqikası. Bakı, Çaşıoğlu, 2006
3. Azərbaycan Respublikası məktəblərinin təhsil standartları. Bakı, 2000
4. Oqtay Abbasov-Təhsilin idarə olunması,"MM-S'' müəssisəsi Bakı-2016
5. Kəlbəliyev Ə.A.Təhsili idarəetmənin əsasları (məktəbşünaslıq). Bakı, Nurlan, 2006

## Collegiate school management

**Summary**

In this article heads, teachingstaff, student and teacher collective have been investigated to ensure the transparency of collegial governing bodies and importance of building personality with comprehensive knowledge, skills, high culture and progressive outlook for proper and effectively organized management have been discussed.

## Коллегиалъное управление школой

**Резюме**

В статъе исследуется взаимодействие преподавательского состава, студента и преподавательского состава с целъю обеспечения прозрачности коллегиальных органов управления, иформирования все-стороннего, высококулътурного, прогрессивного видения правилъного и эффективного управления, а также формирования личности с ценностями прогрессивного мировоззрения

**Rəyçi: prof. M.İlyasov**

Göndərilib: 21.04.2020 Qəbul edilib: 24.04.2020